Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 169-172
DOI:10.30546/gdu.3.2024

UOT:781.

# TAR ALƏTİNİN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

***Əliyev Əli Sahib oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Azərbaycan xalq çalğı simli alətləri arasında texniki və dinamik imkanlarına görə tar ən mükəmməl və təkmil çalğı alətidir. Tar dünya musiqi xəzinəsinin nadir incilərindəndir.*

*Təqdim olunan məqalədə tar alətinin yaranması, inkişafı və Azərbaycan musiqisində mövqeyi, ifaçılıq xüsusiyyətləri ilə bağlı məsələlərdən bəhs olunur.*

**Açar sözlər:** Azərbaycan, tar, muğam, ifa, milli musiqi
**Ключевые слова:** Азербайджан, тар, мугам, исполнение, национальная музыка
**Key words:** Azerbaijan, tar, mugham, playing, national musiq

Öncə qeyd edək ki, "Tar" sözünün farsca lüğəti mənası tel, sap deməkdir. Başqa musiqi alətləri kimi, təbiidir ki, müasir tar da özündən əvvəlki qədim simli musiqi alətləri əsasında yaranmış və əsrlər boyu formalaşmışdır. Tarın adına Qətran Təbrizinin (XI əsr), Nizami Gəncəvinin (XII əsr), Məhəmməd Füzulinin (XVI) və başqalarının əsərlərində rast gəlinir. 2012-ci ildə "Simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti" UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

Tar alətinin zəngin inkişaf tarixində müxtəlif növləri olub. Dütar, setar, çahartar, pənctar və şeştar kimi simli musiqi alətləri tarın müxtəlif növləri hesab edilir. Əbdülqadir Marağai (1360-1435) "Məqasid əl-əlhan" əsərində şeştar (6 simli) barədə məlumat verərək, onu geniş təsvir etmişdir.

Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin "Azərbaycan musiqi həyatına bir nəzər" adlı məqaləsində yazır: "*Tar ən ziyadə istemal edilən alətin birincisidir*" [3, s.145]. Bəstəkar tarın quruluğu ilə maraqlanaraq, bununla əlaqədar elmi tədqiqatlar aparmış, tar aləti üçün metso-soprano alətinin daha əlverişli olduğunu sübut etmişdir. Bu gün də tar üçün notlar "do" sistemli metsosoprano açarında yazılır. Tarın səs düzümü xromatik olub, 2,5 oktavanı əhatə edir. Diapazonu kiçik oktavanın "do" səsindən ikinci oktavanın "sol" səsinə kimidir.

Dahi Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisnin əsasları" adlı fundamental əsərində yazır: "*Azərbaycan çalğı aləti tarın hər simi üzərində birinci oktavada 17 pərdə göstərilməsinə gəldikdə, qeyd etməliyik ki, bu 17 pərdə hər bir oktavada vardır. Misal üçün, fortepianodakı hər bir oktavada 7 sadə, 5 diezli vo 5 də bemollu səs vardır ki, bunların də cəmi 7+5+5=17-dir. Diezli və bemollu səslər eyni dil (klaviş) vasitəsilə göstərilir.*

*Tarın ikinci oktavasında da eyni vəziyyət alınır; burada da enharmonik bərabər səslər pərdəaşırı göstərilir. Buradan aydın olur ki, temperasiyalı səslərə müəyyən dərəcədə alışdıqda Azərbaycan melodiyalarının temperasiyalı alətlərdə ifa olunması pis təəssürat oyatmaz. Tersiya tonlarının fortepianoda bir qədər uyğunsuz səslənməsi artırılmış sekundanın (tara nisbətən) daha dolğun, relyefli səslənməsilə əvəz olunur* [3, s. 22].

Araşdırmalar göstərir ki, XIX əsrin II yarısında Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan; 1846-1902) tərəfindən tarın quruluş və formasında dəyişikliklər edilmiş, simlərinin sayı artırılmışdır. Tarın rezonansını artırmaq üçün Sadıxcan bir sıra işlər görmüş, tara zildə səslənən yeni pərdələr əlavə etmiş, həmçinin "lal barmaq" üslubunu icad etmişdi. Əvvəllər tarı diz üstə əyilərək çalırdılar. Sadıxcan bu üsulu ləğv edərək, tarı sinə üzərində tutaraq çalmışdı. Yeni Azərbaycan tarının yaradıcısı olan Sadıqcanı "tarın atası" adlandırırdılar. Mirzə Sadıq tarla bərabər muğamları da təkmilləşdirmiş, tarın qoluna "Zabul" pərdəsini,

DOI:10.30546/gdu.3.2024

“Mirzə Hüseyn Segah”ına isə “Müxalifi” əlavə etmişdir. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılmışdır. Mirzə Sadıqdan sonra görkəmli tarzən-pedaqoq Əhməd Bakıxanovda tarın quruluşuna cuzi dəyişikliklər etmişdir. Bununla bağlı Ə.Bakıxanov yaradıcılığının təqdiqatçısı Əvəz Rəhmətov belə yazır: “*O, tarın qolunu uzatmaq və onun pərdələrinin sayını artırmaq yolu ilə tarın kiçik çanağındakı üz pərdəsini ixtisara salmış, qoluna beş pilləvari sarı sümük əlavə etmişdir. Bu təkmilləşdirmə nəticəsində musiqi alətin diapozonu və ifaçılıq imkanları xeyli artırmışdır*” [9, s.18].

Qeyd edək ki, tar sinədə üfüqi tutulur, sağ əlin biləyi ilə çanaq hissəsi döşə sıxılır, simlər baş və şəhadət barmaqlarının arasında tutulmuş mizrab vasitəsi ilə ehtizaza gətirilir. Tarın qolu sol əlin baş və şəhadət barmaqları arasında sıxılır, sağ əlin ehtizaza gətirdiyi simlər sol əlin şəhadət, orta və adsız barmaqları ilə müxtəlif pərdələri sıxmaqla çalınır. İfa zamanı texniki və bədii imkanları təmin etmək üçün trel və müxtəlif mizrabvurma üsullarından, ştrixlərdən istifadə edilir. Üstmizrab, altmizrab, üst-altmizrab, alt-üstmizrab, rux (sağ-sol) mizrab, santurmizrab (üstaltüst) və digər ştrixlərdən əlavə, lal barmaq, dartma sim (vibrasiya), sürüşdürmə barmaq (qlissando) kimi ştrix və üsullardan da istifadə olunur. İfaçı mizrabı simə vuraraq tarı döşünə sıxmaqla səsi uzun müddət dalğalandırır. Alınmış bu fasilə zamanı yaranan effekt “xum” adlanır.

Quruluş və forma etibarı ilə başqa musiqi alətlərindən fərqli olan tar, əsasən, üç hissədən - çanaq, qol və kəllədən ibarətdir. Tarın çanaq hissəsi tutdan, qol və kəllə hissələri isə qoz ağacından hazırlanır. Onun uzunluğu 850 mm, çanağının hündürlüyü 16 mm, eni 185 mm-dir. Tarın qoluna 22 pərdə bağlanır. Çanağının üzərinə mal ürəyinin pərdəsi çəkilir. Müxtəlif diametrli 11 metal simi vardır. Sümük ya ebonitdən hazırlanmış kiçik mizrabla dilləndirilir.

Tarın simləri üç qrupa bölünür:

1.Ağ, sarı və kök simlər (hər biri bir olur).

2.Kök sim (tək qalın sim yalnız muğamla ifa olunur).

Zəng simlər (cingənə; iki cüt olur).

Elmi-pedaqoji ədəbiyyatın təhlili göstərir ki, müasir tar ifaçılığı XX əsrdə daha güclü inkişaf mərhələsinə başlamışdır. Belə ki, 1931- ci ildə Ü.Hacıbəylinin və M.Maqomayevin təşəbüsü ilə yaradılmış ilk notlu xalq çalğı alətləri orkestrində tar aparıcı alət kimi əsas yeri tutmuşdur. Əsası Ü.Hacıbəyli tərəfindən qoyulmuş notlu ifaçılıq məktəbi tarın texniki və bədii imkanlarını daha da artırmışdır. Cəmi 23 yaşında dünyasını dəyişmiş istedadlı bəstəkar Asəf Zeynallı yeni səslər axtararkən xalq çalğı alətlərinin səsdüzümünün xüsusiyyətləri, tar və kamançanın ölçüləri ilə maraqlanmışdır. Onun arxivində ölçüləri və hissələrinin yerləşməsini göstərilən tar şəkli və “Tarın müdafiəsi” məqaləsi saxlanılır. O, həmin məqalədə yazırdı:“*Tar öz konstruksiyasına görə yeganə alətdir ki, xalq yaradıcılığı və muğamlar ın mahiyyətini dəqiq çatdıra bilir”* [4].

Muğam operalarında solo oxumaları tarın müşayiətilə aparılır. Tar, əsasən, muğam üçlüyünün tərkibində (tar, kamança, qaval) aparıcı alət kimi istifadə edilib və bu gün də muğam sənətinin inkişafında müstəsna rol oynayır. Muğam sənəti və tar ifaçılıq sənəti qırılmaz tellərlə bağlıdır. Azərbaycanın Birinci vitse-prezidenti, çox hörmətli Mehriban xanım Əliyeva “Muğam aləmi” Beynəlxalq elmi simpoziumu açaraq demişdir: “*Muğam bir növ genetik bir koddur. Muğama varmaq, muğam dünyasına qərq olmaq və əvvəlki həyatı olduğu kimi yaşamağa davam etmək demək olar ki, mümkün deyil. Muğam aləminə daxil olan kəs onun fəlsəfəsini qəbul etməyə məhkumdur. Bu fəlsəfə isə muğamdan muğama yeni çalarlarla zənginləşir. Bu fəlsəfə bir çox nəsillərin həyat təcrübəsindən, dünyaya baxışından doğur. Muğam səsləndikcə, o bizi özünün musiqi obrazlarına uyğun çoxşaxəli assosiasiyalar*

DOI:10.30546/gdu.3.2024

*burulğanına atır. Bu baş vermədisə, deməli, bu muğam sizin muğamınız deyil. Öz muğamınızı axtarın. Siz onu mütləq tapacaqsınız*” [7, s.7].

Azərbaycan instrumental musiqi tarixində Ü.Hacıbəyli tərəfindən fortepianonun tarı müşayiət etməsi, gələcəkdə onun imkanlarından daha geniş istifadə etmək problemlərini qoyur. A.Novruzov “Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkarları əsərlərinin rolu” adlı sənətşünaslıq namizədi elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasıyasında yazır: “*Fortepianonu tarla birlikdə səsləndirmək nəticəsində Şərq və Qərb musiqisi alətləri arasında dialektik vəhdətə nail olmaqla bərabər, Azərbaycan tarında milli musiqi nümunələrindən başqa, xarici ölkə bəstəkar əsərlərindən istifadə etmək ənənəsi yaranır*” [8, s.14].

Qeyd etmək lazımdır ki, tar alətində ifa etmək xüsusi virtuozluq tələb edir.

Tar həm uşaq musiqi məktəblərində, həm musiqi texnikumlarında, həm də ali təhsil ocaqlarında tədris olunur.

Görkəmli bəstəkar S.Rüstəmovun 1935-ci ildə yazdığı “Tar məktəbi” adlı kitabı tədris prosesində bu gün də böyük əhəmiyyətə malikdir.

XX əsrin 60-cı illərində həvəskar tarzən Varid Fərzəlibəyov tarın bəm (bas) formasını icad edib. Sonralar Q.Qasımlı və B.Balabəyov da daha 2 növ fərqli bəm tar hazırlayıblar.

Görkəmli tarzənlərimizin tarda ifaçılıq məharətləri dinləyicələr tərəfindən heyranlıqla qarşılanır. Bir sıra tarzənlərin yaradıcılıqlarına nəzər salaq. Tanınmış tarzən Hacı Məmmədov muğamları çox böyük ifaçılıq texnikası ilə ifa edən özündən əvvəl yaşayıb -yaratmış tarçalanları təkrarlamayan, yeni ifaçılıq məktəbi yaradan solist idi. İnstrumental muğamlarımızın yaşamasında Hacı Məmmədovun əvəzsiz xidmətləri var. Onun ifasında “Orta Mahur”, “Çoban bayatı” və bir çox xalq melodiyaları bu gün də dinləyicilərin yaddaşında yaşayır. Onu da qeyd etmək lazımdır ki, Hacı Məmmədov bir sıra Azərbaycan, Rus və Avropa bəstəkarlarının əsərlərini ilk dəfə tarda yüksək səviyyədə ifa etmişdir.

İstedadlı tarzənlər muğam sənətini ifaları ilə yaşatmaqla yanaşı muğamlarımızı araşdıraraq sanballı elmi əsərlər yazmışlar.

Görkəmli tarzən, pedaqoq Əkrəm Məmməd oğlu Məmmədli də şifahi ənənəli Azərbaycan xalq professional musiqisi olan muğamları tar ifaçılığı xüsusiyyətlərində not yazısına almışdır. O, “Azərbaycan muğamları” adlı kitabında klassik musiqi incilərimizdən olan on dörd muğamı “Zabul-Segah”, “Şur”, “Çahargah”, “Hümayun”, “Bayatı-Şiraz”, “Şüştər”, “Orta-Mahur”, Bayatı- Qacar”, “Şahnaz”, “Rahab”, “Bayatı-Kürd”, “Mahur-Hindi” və “Xaric segah” muğamlarının intrumental not yazısında həmin muğamların xarakteri və onların ifa tərzini sadə və anlaşıqlı dildə işıqlandırılmışdır. Burada muğam ifaçılığının tar qaydasının yazılışı və praktiki cəhətdən göstərilməsi; muğama aid musiqi istilahlarının lüğəti mənası; maraqlı pozisiya, applikatura və ştrixlərin əsas nöqtələrdə notların üzərində yazıya alınması; not yazılarında ölçü dəyişkənliyinin göstərilməsi və s. xüsusiyyətlər şərh olunmuşdur.

Tarda peşəkar ifa musiqini qavramağa və dərindən dərk etməyə kömək edir. Muğamı tarda ifa edərək onun fəlsəfi fikirlərini daha aydın mənimsəməyə imkan verir. Bununla əlaqədar professor S.Qurbanəliyeva “Şəxsiyyət və musiqi” adlı kitabında yazır: “*Musiqi qavrama və dərk etmə həmişə estetik yaşamaya səbəb olur. Zəngin mənalı musiqi sönməktə olan ruhu həyata qaytarıb alovlandırdığı kimi, alışıb alovlanan ruha da su çiləyir, ona kövrək bir sərinlik gətirir* ” [5, s.31].

Beləliklə, Azərbaycan peşakar xalq musiqisi tarsız çətin ki, bu gün müşahidə etdiyimiz səviyyəyə çata bilərdi. Məhz tarın və onunla sıx bağlı olan muğam sənətinin vasitəsilə bütün dünya Azərbaycan xalq musiqisinin mahiyyətini və özünəməxsusluğunu anlamış və onun zənginliyinə valeh olmuşdu.

DOI:10.30546/gdu.3.2024

***Ədəbiyyat***

1. Abdullayeva S. Nizamidə musiqi, musiqidə Nizami. Bakı, “Nurlar”, 2018, 359 s.
2. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri. Bakı, “Adiloğlu”, 2002, 454 s.
3. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. //XX əsr Azərbaycan musiqi elminin abidələri. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə. İdeya müəllifi, tərtibçi və məsul redaktor T.Məmmədov. Bakı, “Şərq-Qərb”, 2019, 360 s.
4. Kazımov N.K. Həmişəcavan bəstəkar. // Azərbaycan, 2009, 5 aprel, s.7.
5. Qurbanəliyeva S.F. Şəxsiyyət və musiqi. Bakı, “Adiloğlu”, 2010, 160 s.
6. Məmməmdli Ə.M. “Azərbaycan muğamları”. Bakı, 2010 , 315 s.
7. “Muğam aləmi” beynəlxalq elmi simpoziumunun materialları. 18-20 mart 2009-cu il. Bakı, “Şərq-Qərb”, 2009, 432 s.
8. Novruzov A.M. Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkarları əsərlərinin rolu. Sənətşün. e. n. a. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı, 2002, 24 s.
9. Rəhmətov Ə.M. Əhməd Bakıxanov. Bakı, “İşıq”,1977, 144 s.

**Saytoqrafiya:**

10.Azərbaycan ənənəvi musiqisi. URL: http:/enene.musigidunya.az
11.Muğam ensklopediyası. URL: http//muğam. nusigidunya.az
12.Üzeyir Hacıbəyli. Azərbaycan xalq musiqisinin əsasları. Layihənin rəhbəri Bədəlbəyli F. URL: http://musbook. musigi-dunya.az

## СОБЕННОСТИ ИСПОЛНЕНИЯ ИГРЫ НА ТАРЕ

***Алиев Али Сахиб оглы***

***Резюме***

Среди Азербайджанских струнных инструментов тар по своим техническим способностям является наиболее совершенным и продвинутым инструментом. Тар один из редких жемчужин мировой музыкальной сокровищницы.

## PERFORMANCE CHARACTERISTICS OF THE TAR INSTRUMENT

***Aliyev Ali Sahib***

***Summary***

Among the stringed instruments of Azerbaijan, tar is the most perfect and advanced instrument for technical and dynamic capabilities. Tar is one of the rare pearls of the world musical treasure.

***Rəyçi: Sevinc Rüstəmova***
***Musiqi fənləri kafedrasının 12 iyun 2024-cü il tarixli iclasın 20 saylı protokolu***
***Daxil olma tarixi 26 sentyabr 2024-cü il***